## Ələsgər Əlioğlu-70

# Yetmiş ilin dolaylarını adlayan şair



İlqar MÜZƏFFƏROĞLU

*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

***Həmyerlimiz şair Ələsgər Əlioğlunun imzası qırx beş il olardı ki, mənə tanış idi. Şeirlərini, nəsrini və publisistik yazılarını oxusam da, onunla yaxından ünsiyyət qurmağa məndə elə bir imkan yaranmamışdı.***

***2023-cü il dekabrın son günlərində Goranboy rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Ələsgər Əlioğlunun anadan olmasının yetmiş illik yubileyi təntənəli surətdə keçirildi Bu təntənəli mərasimdə şairə sonsuz el-oba məhəbbətinin bir daha şahidi oldum. Zalda iynə atsan yerə düşməzdi...***

Tədbiri giriş sözü ilə açan Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Ələsgər Əlioğlunun çoxşaxəli yaradıcılığından danışmış, onun rayonda yazıb-yaradan ədəbi qüvvələrin yetişməsində xidmətini ətraflı surətdə qeyd etmiş, redaktorluğu ilə çap olunan, rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatını özündə əks etdirən “Gülüstan” toplusunu da yüksək dəyərləndirmişdir.

Tədbirdə Bakı və Gəncədən təşrif buyuran qələm-söz sahibləri də vardı.Tanınmış qələm sahiblərindən Xəzangül Hüseynova, Qərib Mehdi, Aləmzər Əlizadə, Sərvaz Hüseynoğlu, Oqtay Abdulla, İqbal İsmayılov və başqaları öz çıxışlarında Ələsgər Əlioğlunun yaradıcılığından geniş söz açmışlar.

Elə bu hisslərin, bu duyğuların orbitində şairin həyat və yaradıcılığına ətraflı nəzər yetirmək fikrinə düşdüm. O, 1953-cü ildə Goranboy rayonunun Xanqərvənd kəndində dünyaya göz açmışdır.

Hələ ilk gənclik çağlarından şeirə-sənətə maraq göstərən Ələsgər Əlioğlu 1970-ci ildə Gəncə Dövlər Pedaqoji Universitetinə (keçmiş KDPİ) qəbul olunmuş, təhsilini başa vurduqdan sonra bir müddət pedaqoji sahədə çalışmışdır. Uzun illərdir ki, müstəqil yaradıcılıqla məşğuldur. Şeirləri alban, rus, belarus, özbək və s. dillərə tərcümə olunmuşdur.

Ələsgər Əlioğlunun bir sıra əsərləri ibtidai sinif dərsliklərinə daxil edilmişdir. Sinifdənxaric oxu və elmi-metodik kitablarda da onun yaradıcılığına geniş yer verilmişdir. Həyat və yaradıcılığı ali məktəblərin filologiya fakültələri üçün hazırlanmış “Uşaq ədəbiyyatı” dərsliyinə daxil edilmiş, 2016-ci ildə müddətli Prezident təqaüdünə layiq görülmüşdür.

Tanınmış sənətkarlardan Osman Sarıvəlli, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Çingiz Hüseynov, Bəkir Nəbiyev, Bağır Bağırov, Tofiq Mahmud, Tofiq Mütəllibov və başqaları Ələsgər Əlioğlunun yaradıcılığı ilə bağlı xoş sözlər söyləmişlər. Ə.Əlioğlu hazırda Xanqərvənd kəndində yaşayır.

Əsərləri hələ ilk gənclik çağlarından “Azərbaycan”, “Ulduz”, “Literaturnıy Azerbaydjan” jurnallarında, “Ədəbiyyat qəzeti”, “Ədalət”, “Kaspi”, “525-ci qəzet” və s. mətbuat orqanlarında ardıcıl surətdə çap olunur.

Ələsgər Əlioğlu “Həqiqət meridianlarında” qəzetinin təsisçisi və baş redaktorudur. O, bir naşir kimi beş yüzdən artıq müxtəlif mövzulu kitabları redaktə etmişdir.

***Ələsgər Əlioğlu 1983-cü ildən Goranboy rayon Mədəniyyət Şöbəsində (indiki mədəniyyət mərkəzində) fəaliyyət göstərən ‘Əli Nəzmi” ədəbi birliyinin təsisçisi və sədridir. Onun tərtibçiliyi və redaktorluğu ilə Goranboy rayonundan olan yaradıcı qüvvələrin əsərlərindən ibarət ‘Goranboyun söz dünyası” toplusu işıq üzü görmüş, gərgin və səmərəli axtarışları nəticəsində ‘Goranboy bayatıları”, ‘Goranboy lətifələri”, ‘Goranboy ölkə mətbuatında” kitabları çapdan buraxılmışdır.***



Ələsgər Əlioğlunun bir sıra şeirləri antologiyalara daxil edilmiş, ədəbi ensiklopedik kitablarda haqqında məlumatlar verilmişdir.

22-23 oktyabr 2021-ci il tarixdə Türkiyədə “Uluslararası cocuq və gənclik ədəbiyyatı simpoziumu” keçirilmiş və burada oxunan məruzələr İstanbulda “Akademi Ajans Matbaa”da çap olunmuşdur ki, burada Ələsgər Əlioğlunun yaradıcılığına həsr olunmuş “...Ədəbiyyat ortamında yaradıcı cocuq ədəbiyyatı araşdırması Ələsgər Əlioğlunun əsərləri örnəyində” yazı da ingilis, türk və Azərbaycan dilində həmin topluya daxil edilmişdir.

Ələsgər Əlioğlunun “Xortumsuz fil” adlı ilk şeirlər kitabı 1982-ci ildə “Gənclik “ nəşriyyatı tərəfindən çapdan buraxılmışdır.Sonralar şairin “Səhərin yoluna çıxdım” (“Yazıçı”-1983), “Yeraltı keçid” (“Gənclik “-1987), “Dəryada gəmim qaldı” (1989), “Kapitan kəpənək” (“Agah”-2002), “Kəpənəkli bant” (“Günəş”-2003), “İtən bala göyərçin” (Gəncə-2008), “Yaz qalayan tonqal” (Gəncə-2008), “Göydə uçan qurbağa” (Gəncə-2008). “Bələdçi ağaclar” (“Vektor” Nəşrlər Evi-2015), “Qibləyə tutdum üzümü (“Vektor” Nəşrlər Evi-2015), “Sərnişin qarışqalar” (“Vektor” Nəşrlər Evi-2015), “Şəklin çıxır qarşıma” (“Şirvannəşr” 2023) və s. kitabları çapdan çıxmışdır.Ümumiyyətlə, şairin bu günlərə kimi uşaqlar və böyüklər üçün qələmə almış olduğu iyirmi beşə yaxın kitabı işıq üzü görmüşdür.

***Ömrünün yetmişini tamamlayan şairin yaradıcılıq yolunu nəzərdən keçirdikdən sonra elə düşünürəm ki, o bu müddət ərzində mənalı bir ömür yaşamış, imzasını ədəbiyyat tariximizə əbədi həkk etmişdir.***

Bu şərəfli yollarda şair qardaşıma can sağlığı və yeni-yeni uğurlar arzulayıram! Qoy yetmiş ilin dolaylarını cəsarətlə adlayan şair uşaqlar və böyüklər üçün yenə də dəyərli əsərlər qələmə alıb onları sevindirsin! Yekunda ona həsr etdiyim bir şeiri də oxuculara təqdim edirəm:

**Ömrünü şeirə-sözə vermisən,**
**Qəlbini alova, közə vermisən.**
**Qayğını həmişə bizə vermisən,**
**Ay Əlioğlu.**

**Yazıb yaratmısan nə qədər dastan,**
**Qazanmısan daim böyük şöhrət-şan.**
**Adını çəkirlər fərəhlə hər an,**
**Ay Əlioğlu.**

**Qəlbini duyursan uşaqların da,**
**Nəğmələrin gəzir dodaqlarında.**
**Sözdür bu dünyada dövlər-varın da,**
**Ay Əlioğlu!**
**Ay Əlioğlu!**



**Tədbir iştirakçıları Ə.Əlioğlunun əsərlərinin sərgisi ilə tanış olarkən**



**İcra başçısı Ə.Əlioğlunu mükafatlandırarkən**



**Zaldan bir görüntü**



**Ə.Əlioğlunun səhnələşdirilmiş “Bir ovuc torpaq” hekayəsinin balaca aktyorları**